*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 may 2016-cı il № 37 (2052) Qiyməti 25 qəpik


## Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib



***Mayın 15-də Qəbələ şəhərində Azərbaycan, Türkiyə və Gürcüstanın Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin Milli Müdafiə naziri İsmət Yılmaz və Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli əvvəlcə Qəbələ şəhərindəki Şəhidlər xiyabanını ziyarət edərək ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsini yad ediblər və "Əbədi məşəl" abidə kompleksi önünə gül dəstələri qoyublar. Sonra qonaqlar ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək abidəsi önünə gül dəstələri düzüblər.

Sonra Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində müdafiə nazirləri arasında təkbətək formatda görüşlər başlayıb. Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyənin Milli Müdafiə naziri İsmət Yılmaz ilə görüşüb. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq, Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini və ölkələrimiz üçün faydalı olduğunu qeyd edib. İsmət Yılmaz Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı münasibətlərin möhkəmlənməsində bu cür görüşlərin rolunu və əhəmiyyətini yüksək qiymətləndirib. Nazirlər regional və qarşılıqlı əməkdaşlıqla bağlı digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıblar. Görüşdə Türkiyənin ölkəmizdəki səfiri İsmail Alper Coşkun da iştirak edib.

Eyni zamanda, Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli ilə görüşüb. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə general-polkovnik Zakir Həsənov qonaqları Azərbaycanın qədim diyarı olan Qəbələdə salamlayaraq ölkələrimiz arasında aparılan danışıqların və keçirilən görüşlərin strateji əhəmiyyətini vurğulayıb. Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının yüksək templə inkişaf etdiyini bildirən general-polkovnik bu əlaqələrin daimi olacağını qeyd edib. Qəbələ şəhərinə ilk dəfə səfərindən məmnunluğunu ifadə edən Gürcüstanın Müdafiə naziri yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Sonra isə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü olub. Görüşdə nazirlər regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıb və hərbi sahədə əməkdaşlıq üzrə bir sıra qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər. Danışıqlardan sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib və Müdafiə nazirləri üçtərəfli görüşün yekunları barədə medianı məlumatlandırıblar. Mətbuat konfransında Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qəbələ şəhərində üçtərəfli formatda keçirilən dördüncü görüşün əhəmiyyətindən danşıb. Zakir Həsənov deyib: "Mən bir daha həmkarlarım İsmət Yılmaza və xanım Tinatin Xidaşeliyə dəvətimizi qəbul edib gəldiklərinə və bu görüşdə iştirak etdiklərinə görə təşəkkürümü bildirirəm. Görüş zamanı 3 dost-qonşu xalq arasında münasibətlərin və fəaliyyətlərin üçtərəfli formatda inkişaf etdirilməsinin səmərəliliyi vurğulanıb, bu formatda münasibətlərimizin gələcək perspektivlərini müzakirə etdik, qarşılıqlı maraq doğuran istiqamətlər barədə geniş fikir mübadiləsi apardıq. Üç ölkənin Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılması və qarşılıqlı əməliyyat uyarlılığının əldə edilməsi məqsədilə üçtərəfli birgə təlimlərin keçirilməsi, hərbi təlim-təhsil sahəsində əməkdaşlığın üçtərəfli formatda təşkil edilməsi, kibertəhlükəsizlik sahəsi üzrə əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən neft və qaz boru kəmərlərinin mühafizəsi üzrə üçtərəfli təlimlərin daha da təkmilləşdirilməsi məqsədəuyğun hesab olunub."

Nazir Zakir Həsənov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında müdafiə sahəsində üçtərəfli Anlaşma Memorandumunun imzalanması nəzərdə tutulur. Hazırda layihəsi razılaşdırılmaqda olan Anlaşma Memorandumunun imzalanması əməkdaşlığımızın hüquqi bazasının əsasını təşkil edəcək, üçtərəfli fəaliyyətlərimizin yeni mərhələyə keçməsinə zəmin yaradacaqdır. Gələcəkdə də bu formatdan irəli gələn yeni təşəbbüs və layihələrin həyata keçirilməsi planlaşdırılır. Görüş zamanı regionda cərəyan edən hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb, bölgədə sabitliyin təmin edilməsi yolları birgə araşdırılıb, qloballıq nöqteyi-nəzərdən çıxışlar edilib, sabitlik haqqında danışılaraq onun əhəmiyyəti vurğulanıb.

**(Ardı 2-ci səhifədə)**



"Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş şəhidlərimizin təltifləri ailə üzvlərinə təqdim edilib

2-ci səhifədə



Cəsur zabitlərimizdən biri

3-cü səhifədə



Döyüşçülərimizin sağlamlığı keşiyində

4-cü səhifədə



Qürurla yaşayırıq

8-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan, Gürcüstan və Türkiyə Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib

(Əvvəli 1-ci səhifədə)

Nazir Zakir Həsənov qeyd edib ki, ikitərəfli və üçtərəfli görüşlər zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı məsələlər, xüsusən də son zamanlarda münaqişə zonasında gərginliyin artması ətraflı müzakirə edilib. Münaqişələrin sülh yolu ilə həllinin zəruriliyi və bir-birimizin suverenliyi, ərazi bütövlüyünə qarşılıqlı beynəlxalq hüquq normaları çərçivəsində yanaşmanın vacibliyi bir daha qeyd edilib. "Əminəm ki, müdafiə sahəsində əməkdaşlıq üzrə üçtərəfli fəaliyyətlərimiz ölkələrimizin təhlükəsizliyinin təmin edilməsinə, xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə, eləcə də regionda sülhün, sabitliyin və davamlı inkişafın bərqərar olmasına öz töhfəsini verəcəkdir. Mən bir daha həmkarlarıma səmimi və səmərəli müzakirələrə görə təşəkkür edir, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində və son hadisələr zamanı Azərbaycanın ədalətli mövqeyini dəstəklədiklərinə görə türk və gürcü



xalqlarına minnətdarlığımızı bildirir, bütün regiona, sülh, əmin-amanlıq və rifah arzulayıram."

Mətbuat konfransında Türkiyənin Milli Müdafiə naziri İsmət Yılmaz jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, bu gün üç ölkə arasında hərbi-texniki və hərbi-təhsil sahəsində əməkdaşlıq, treninqlərin keçirilməsi, təcrübə mübadiləsi məqsədilə qarşılıqlı səfərlərin təşkili, bölgədəki vəziyyətlə bağlı regional təhlükəsizlik məsələlərini, Azərbaycan, Türkiyə və Gürcüstan arasında birgə hərbi təlimlərin keçirilməsi, üç ölkənin iştirakı ilə həyata keçirilən qlobal layihələrin, neft və qaz kəmərlərinin təhlükəsizliyinin birgə təmin olunması məsələlərini müzakirə etdik və razılıq əldə olundu. İsmət Yılmaz Türkiyə Silahlı Qüvvələrinin komandanlığının Azərbaycanın Müdafiə Nazirliyi ilə həmrəy olaraq Azərbaycana, eləcə də onun Silahlı Qüvvələrinə dəstək olduqlarını ifadə edib. Türkiyəli nazir deyib ki, Azərbaycan öz hərbi gücünü artırmaq və müdafiə sahəsini gücləndirmək əzmində olan ölkədir. Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həllini Azərbaycan qədər istəyir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının aradan qaldırılması və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələsində Türkiyə Azərbaycana hər cür dəstək verməyə hazırdır.

Gürcüstanın Müdafiə naziri xanım Tinatin Xidaşeli mətbuat konfransında deyib ki, bizim məqsədimiz regionda sülh və əmin-amanlığın bərpası və qorunmasına yönəlib. O qeyd edib ki, Gürcüstan bu gün Azərbaycan və Türkiyə ilə bütün sahələrdə, o cümlədən hərbi sahədə geniş əlaqələrə malikdir. Bugünkü görüşdə əldə olunan razılıq mövcud əməkdaşlığı daha da genişləndirməyə imkan yaradacaq. "Gürcüstan və Azərbaycan ötən 25 il ərzində hər zaman Türkiyənin dəstəyini görüb. Bu görüşümüzü 3 ölkə arasında hərbi əməkdaşlığın daha da genişləndirilməsi üçün səmərəli hesab edirəm", - deyə nazir vurğulayıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını, bölgədə sabitliyin və davamlı inkişafın bərqərar olmasının tərəfdarı olduğunu bildirib.

# "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş şəhidlərimizin təltifləri ailə üzvlərinə təqdim edilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2016-cı il 19 aprel tarixli Sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri şəxsi igidliyə görə polkovnik-leytenant Mirzəyev Murad Telman oğluna və mayor İmanov Samid Gülağa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Mayın 16-da Azərbaycanın Müdafiə Nazirliyində rəhbər heyətin iştirakı ilə ölümlərindən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş bu hərbi qulluqçuların ailə üzvlərinə şəhidlərin "Qızıl Ulduz" medalları təqdim edilib.

Təqdimetmə mərasimində çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüşlərdə şəhid olanların ailələrinə başsağlığı verərək, onların qəhrəmanlığı qarşısında baş əydiyini diqqətə çatdırıb. O, igidlərimizin şəhidlik zirvəsinə ucalmaqla yeni tarix yazdıqlarını, Vətən uğrunda canı, torpağa tökülən qanı ilə əbədi olaraq xalqımızın yaddaşında qalacaqlarını vurğulayıb.

Şəhidlərimizin qisasının alındığını və bundan sonra da alınacağını, onların qanının yerdə qalmayacağını bildirən nazir Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti sayəsində işğal altındakı torpaqlarımızın düşmən işğalından mütləq azad olunacağını xüsusi qeyd edib.

Təltif olunma barədə sərəncam oxunduqdan sonra general-polkovnik Zakir Həsənov "Azərbaycanın Milli Qəhrəmanı" adının vəsiqəsini polkovnik-leytenant Murad Mirzəyevin həyat yoldaşı Fizzə Mirzəyevaya təqdim edib və "Qızıl Ulduz" medalını şəhidin yeddi yaşlı oğlu Nurlanın yaxasına sancıb.

Sonra Milli Qəhrəman mayor Samid İmanovun atası Gülağa İmanova "Qızıl Ulduz" medalı və vəsiqəsi təqdim edilib.



Milli Qəhrəmanlarımızın ailə üzvləri Fizzə Mirzəyeva və Gülağa İmanov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edərək Vətənin müdafiəsinin hər şeydən vacib olduğunu, əzizlərinin şəhidlik zirvəsinə ucalması ilə qürur duyduqlarını vurğulayıblar.

Bildirilib ki, şəhid qanına boyanan əzəli və əbədi torpaqlarımız Azərbaycan Silahlı Qüvvələri tərəfindən tezliklə işğaldan azad olunacaq və o zaman əzizlərinin şəhid ruhları dinclik tapacaqdır.

Mərasimin sonunda xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

*Ordenli igidlərimiz*

# Cəsur zabitlərimizdən biri

**Axşam günəşi asta-asta Murovun üzərindən aşıb qüruba çəkildikcə, yüksəkliyin kölgəsi İncə çayının yatağına doğru uzanırdı. Ön xətdə döyüşçülərimiz səngər qazır, döyüş postlarını möhkəmləndirirdilər.**

**Kapitan Mirdamət Bağıyev daxili bir rahatlıqla qarşıdakı çökəkliyi, sağımızdakı başı göylərə dirənən Murovu süzür. Onun baxışlarında qürur dolu bir təbəssüm sezirəm.**



Aprel döyüşlərində şücaət göstərənlərdən biri də tank əleyhinə batareyanın cəsur komandiri idi. Onun qəhrəmanlığı barədə hələ qərargahda zabitlər danışmışdılar.

Birdən Mirdamət üzünü turşutdu, çiynindəki avtomatı sağ əlilə rahatladı, əlini yüngülcə sol çiyninə qoydu. Hiss olunurdu ki, çiyni ağrıyır.

- Yaran ağrıdır? - soruşuram.

- Dözməliyik, - Mirdamət özünəməxsus səmimiliklə gülümsünür.

Onun son döyüşlərdə yaralandığını, ancaq döyüşləri tərk etmədiyini, batareyası ilə sonadək vuruşduğunu mənə zabit Valeh Rəcəbov da söyləmişdi.

Xeyli müddətdir ki, bacarıqlı, təcrübəli zabit və mehriban insan kimi tanıdığım Valeh Rəcəbovla ön xətdə görüşdük. Onunla son günlər baş vermiş hadisələr barədə söhbət etdik. Ötən günlərin yorğunluğunu hiss etdirməməyə çalışan zabit döyüşlərin qəflətən başlanmasının səbəbi, bölmələrimizin göstərdiyi şücaət və yaxınlıqdakı yüksəkliklərin ələ keçirilməsi barədə düşüncələrini bölüşür. Kapitan Mirdamət Bağıyev barəsində danışanda: - çox cəsur zabitlərimizdən biridir, - deyir. - Son döyüşlərdə böyük rəşadət göstərib. Yaralansa da, döyüş meydanını tərk etməyib, bölmələrini döyüşə ruhlandırıb. Əks-hücum zamanı düşmənin tank və avtomobillərini məhv edib. Biz belə zabitlərimizlə fəxr edirik!

Az keçmiş ucaboylu, şux görkəmli bir zabit yaxınlaşıb salam verir.

- Bu da kapitan Bağıyev! - zabit Rəcəbov gülümsünür.

Cəsur batareya komandirilə təkbətək söhbət etmək, aprelin əvvəllərində baş vermiş hadisələr barədə qəhrəmanın öz dilindən eşitmək, həmin döyüşləri təsəvvürümdə bütün dolğunluğu ilə canlandırmaq üçün bir "küncə" çəkilmək istəyirəm. Biz onunla səngərlərə qalxırıq.

Döyüşçülər bu mövqeləri ələ keçirərkən bayrağımızı ən uca zirvəyə sancıblar. İndi bu yerlərdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanır.

Səngərlərdən gözəl bir mənzərə açılır. Hər yan zümrüd kimi yaşıllığa bürünüb.

Ermənilərin mövqeləri indi döyüşçülərimizin möhkəmləndiyi yüksəkliyin ətəyindədir. Çökəkdə olduğundan indi onları asanlıqla məhv etmək mümkündür. Sol tərəfdə çökəkdən başlanan düzənlik isə xeyli uzaqda yenə yüksəkliyə çevrilir.

- Əvvəllər buralar ermənilərin mövqeləri olub, - kapitan Bağıyev deyir. - Biz onları geriyə atmışıq. Tapqaraqoyunlu kəndi indi tam təhlükəsizdir. Artıq biz yüksəklikdə olduğumuzdan qarşıdakı geniş ərazi də nəzarətimizdədir.

Kapitan Bağıyev daxili bir rahatlıqla qarşıdakı çökəkliyi, sağımızdakı başı göylərə dirənən Murovu süzür. Onun baxışlarındakı qüruru da, təbəssümü də doğuran aprel döyüşlərində bölmələrimizin bu bölgədə azğınlaşmış erməni zinvoruna verdikləri dərsdir. Yəqin ki, düşmən bu dərsi uzun müddət unutmayacaq.



Aprelin 2-də baş vermiş döyüşləri Mirdamət də həmişə xatırlayacaq.

Uşaq yaşlarından evin sonbeşiyi olan Mirdamət ailədə hərbçilərə hörmət görüb. Qarabağ, ermənilərin törətdiyi vəhşiliklər barədə çox eşidib. Bu həqiqətlər onun gələcək peşəsini seçməsində az rol oynamayıb. Böyük həvəs göstərib hərbi formanı geyinməyə. Sırada gedən döyüşçülərə həmişə həsədlə baxıb. Bu həvəs onu zabit olmağa gətirib çıxarıb.

Həmin döyüş barədə cəsur zabitimizdən ətraflı məlumat almaq üçün suallar verirəm. Amma kapitan "xəsisliklə" cavab verir. Vətən oğlunu başa düşmək çətin deyil. Təvazökarlıq özü də cəsur insanların xarakterik cəhətlərindəndir.

Burada təkcə iki ordunun bölmələri üz-üzə dayanmamışdı. Həm də Ermənistanla Azərbaycan qarşı-qarşıya idi. Bütün imkanları, heysiyyatı ilə birgə. Kimin kim olduğu bu həndəvərdə bilinməliydi. O gün, o yüksəklikdə ermənin arxasında havadarı yox idi.

Bu döyüşlərin qəhrəmanlarından biri də tank əleyhinə batareyanın komandiri kapitan Mirdamət Bağıyev oldu.

"O anda elə bir ovqat vardı ki, yaralansam da, döyüşü tərk etmək niyyətində deyildim. Düşməni torpaqlarımızdan qovan döyüşçülərimizdən necə ayrı düşə bilərdim?! Batareyanı irəliyə özüm aparmalıydım. Ona görə tələsik yaramı möhkəm sıxıb bağladım. Çoxları bunu heç hiss etmədi."

Kapitan Bağıyevin bölməsi bayrağımızın dalğalandığı indiki zirvəyə doğru yürüdü. Düşmənin öz itkilərini səngərlərdə qoyub qaçmaqdan başqa çarəsi qalmamışdı.

Aldığı zərbədən sarsılan düşmənə arxadan xeyli kömək gəlmişdi. Və onlar itirilmiş yüksəklikləri qaytarmağa bir neçə dəfə cəhd etdilər. Döyüşlər səngimək bilmirdi.

"Saat təxminən 11 radələri idi. Atışma gedirdi. Bizi iriçaplı silahlardan, minaatanlardan atəşə tutmuşdular. Vaxtilə qazılmış səngərlərdə mövqe tutmuşduq. Dayaz olduğuna görə düşmən mərmilərindən qorunmaq çətin idi. İndi bizim döyüşçülər bu səngərlərdə yeni qazıntı işləri aparıblar.

Bir də gördüm ki, sağ tərəfdən torpaq yolla iki maşın gəlir. Şəxsi heyətlə dolu avtomobil və komandirin "Cip"i idi. Görünür, müdafiədə dayanmış ermənilərə köməyə gəlirdilər. Aramız iki kilometrdən çox olardı.

Nişan alıb öncə komandirin maşınına tank əleyhinə raketlə atəş açdım. "Cip"dən qara tüstü qalxdı. Mərmi onu sıradan çıxardı. Sonra o biri maşını vurdum. Xeyli erməni əsgəri məhv oldu."

Düşmən inadla itirilmiş mövqeləri qaytarmağa cəhd göstərsə də, Vətən oğulları bayrağımızı ucaltdıqları yüksəklikləri bir daha onlara təslim etmək niyyətində deyildilər. Əksinə, daha da irəli getməyə, Ermənistan ordusunun işğal etdiyi digər ərazilərimizi azad etməyə can atırdılar.

"Bir gün sonra düşmən 9 tankla üstümüzə gəldi. Səhər vaxtı idi. Hava da çox sərin idi. Yüksəkliyin arxasından tanklar çıxıb atır, tez də geri çəkilirdilər. Təxminən 3 km aramız olardı.

Fürsətdən istifadə edib bir-bir nişan aldım. Mərmilər hədəfdən yayınmadı. Yalnız 2 tank manevr edib aradan çıxdı."

Yalnız beş gün sonra məlum olmuşdu ki, cəsur kapitan güllə yarası alıb. Yarası artıq çirk eləmiş, ağrıları şiddətlənmişdi.

Onu hospitala göndərirlər. Həkimlərin, tibb bacılarının qayğısı ilə yarasının ağrıları azaldıqca, Mirdamət də ön xəttə can atırdı.

"Hospitalda çox qala bilmədim. Ürəyim partlayırdı. Döyüş yoldaşlarımın yanına tələsirdim. Raport yazdım ki, hospitalda qalmaq istəmirəm, şəxsi heyətimin yanına qayıtmaq istəyirəm. Amma hər gün gedirəm sarğımı dəyişdirirlər."

Göstərdiyi şücaətə görə cəsur kapitan Azərbaycan Prezidenti, Ali Baş Komandan tərəfindən yüksək dövlət mükafatına 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Həyatda hamının böyük arzuları olur. İdeal kimi uzaq bir ulduza can atırsan. Kapitan Bağıyevin isə ən böyük arzusu torpaqlarımızın tamamilə işğaldan azad edilməsidir. Ordumuzun döyüşçüləri buna qadirdirlər. Xankəndinin ən uca binasının üzərində döyüş bayrağımızı sancmaq kapitanın da arzusudur. Artıq qələbənin şirinliyini Azərbaycan əsgəri bu yüksəkliklərdə duyub. Təki Ali Baş Komandan "İrəli!" desin, Müdafiə naziri əmr etsin!

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Belçikaya səfərə gedib

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Brüssel şəhərindəki mənzil-qərargahında Şimali Atlantika Alyansının Hərbi Komitəsinin "Qətiyyətli dəstək" və "Uyarlılıq platforması" formatlarında Baş Qərargah rəisləri səviyyəsində mayın 18-də keçiriləcək görüşlərdə iştirak etmək üçün Belçika Krallığına səfərə gedib.

## Münaqişəyə dair danışıqlara məhəl qoymayan Ermənistanın atəşkəs rejimini pozması nəticəsində əsgərimiz şəhid olub

Münaqişəyə dair danışıqlardan dərhal sonra Ermənistanın silahlı qüvvələri tərəfindən qoşunların təmas xəttində atəşkəs rejiminin pozulması nəticəsində mayın 17-də Silahlı Qüvvələrimizin hərbi qulluqçusu əsgər Tahirli Natiq Namiq oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına, əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Dərhal görülən tədbirlər nəticəsində qarşı tərəfin canlı qüvvəsi məhv edilib.

Müdafiə Nazirliyi bir daha bildirir ki, baş verəcək hadisələrə və qarşı tərəfin itkilərinə görə məsuliyyət bütövlüklə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***17 may 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 120 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Barekamavan və Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Qaymaqlı və Quşçu Ayrım kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Şıxlar, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Qaraqaşlı, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqeləri və səngərlərinə 125 dəfə atəş zərbəsi endirib.

Tibb xidməti

# Döyüşçülərimizin sağlamlığı keşiyində

*...Cəbhə bölgəsində yerləşən hospitalın həyatında adamın duyğularına sakitlik bəxş edən bir arxayınlıq duydum. Tibb ocaqlarında təkcə fiziki sağlamlığımız bərpa edilmir, eyni zamanda dinclik, sakit mühit, ağ xalatlı insanların qayğısı adamı dünyanın əndişəsindən ayırır, ovqatına qeyri-adi rahatlıq gətirir.*

*Hospitalda tezdən hər yan silinib-süpürülmüş, yır-yığış edilmiş, səliqə-sahman yaradılmışdı. Həkimlər, tibb bacıları işgüzar ovqatla ilk saatlardan öz işlərilə məşğul idilər. Bölmə rəisləri palatalarda müalicə alan xəstələrə baş çəkib onların vəziyyətilə tanış olmuşdular. Ötən gün ərzində narahatlıq doğuran bir hadisə baş verməmişdi.*





- Son gün ərzində, xoşdur ki, heç bir yaralı və ya xəstə hospitala qəbul edilməyib, - bizimlə söhbətində tibb xidməti mayoru Elmir Məmmədov dedi. - Müəssisə hazırda adi gün qaydalarına uyğun fəaliyyət göstərir. Dünən müalicə və müayinə üçün müraciət edən hərbi qulluqçular hazırlıqlı mütəxəssislərimiz tərəfindən yoxlanıb, narahatlıq doğuran ciddi bir halla qarşılaşmamışıq.

Ümumiyyətlə, hospital kütləvi yaralıların qəbulu üçün hesablanmış bir müəssisədir. Onun müharibə və sülh şəraitində fəaliyyət prinsipləri var. Hadisələr başlayarkən sanitar avtomobilləri yaralılara ilk tibbi yardım göstərildikdən sonra onları hospitala gətirirdilər. Qəbul şöbəsində onlar təcili olaraq çeşidlənirdi. Vəziyyəti ağır olanlar təxirə salınmadan əməliyyat blokuna verilirdi.

Bir sözlə, o gün hospitalda hər şey əmin-amanlıq dövründə, adi günlərdə olduğu kimi idi. Halbuki bir ay öncə Ermənistan silahlı qüvvələrinin azğınlığı ucbatından ön xətdə döyüşlər qızışanda hərbi şəfa ocağında da rahatlıq pozulmuş, həkim və tibb personalının qayğıları xeyli artmışdı.

Ordumuzun bölmələri düşmənin təxribatlarına o günlərdə tutarlı cavab verdi. Vətən oğulları kənd və qəsəbələrimizi mərmi yağışına tutan düşməni qovaraq xeyli geriyə atdı və strateji yüksəklikləri ələ keçirdilər. Təəssüflər olsun ki, aprel döyüşlərində zabit və əsgərlərimizdən yaralananlar da oldu. Onların bir qismi bu hospitala çatdırılır, bacarıqlı tibb heyəti döyüşçülərimizin həyata qaytarılması üçün əllərindən gələni əsirgəmirdi.

Hadisələr başlayandan sonra Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev tərəfindən həm idarənin, həm də Baş Klinik Hospitalın yüksək ixtisaslı həkimləri və tibb personalı dərhal hospitala ezam edilmişdilər. Onların sayəsində hospitalda mürəkkəb cərrahi əməliyyatlar müvəffəqiyyətlə aparılmış, döyüşlərdə ağır yaralanmış zabit və əsgərlərimizin həyatına yaranmış təhlükələr aradan qaldırılmışdı.

Silahlı Qüvvələrin baş cərrahı tibb xidməti polkovniki Famil Babayev, tibb xidməti polkovniki Çingiz Quliyev, tibb xidməti polkovnik-leytenantları Şücaət Əliyev, Rasim Abdullayev, Mahir Əliyev yaralı döyüşçülərimizin həyata qaytarılması üçün xeyli zəhmət sərf etmişdilər. Digər həkim-reanimotoloqların, xeyli sayda tibb mütəxəssisinin, əməliyyat tibb bacısının köməyilə aparılan əməliyyatlar həm yaralıların xilas edilməsində, həm də yerli mütəxəssislərin təcrübə qazanmasında vacib amil oldu.

Baş Klinik Hospitalın təcrübəli mütəxəssisləri olan septiki cərrahiyyə bölməsinin rəisi tibb xidməti polkovniki Çingiz Quliyevə və təxirəsalınmaz cərrahiyyə bölməsinin rəisi tibb xidməti polkovnik-leytenanti Şücaət Əliyevə hospitalda rast gəldik. Onlar son günlərədək hospitalda çalışmış, gənc həmkarlarına öz dəyərli məsləhətlərini vermişdilər. Onu da qeyd edim ki, Şücaət həkim uzun müddət bu hərbi tibb ocağına rəhbərlik edib. Bu təcrübəli, yurdsevər cərrahlarımız neçə-neçə Vətən oğlunun həyatda qalması üçün saatlarla əməliyyat masasının arxasında yoruldum demədən çalışmışdılar.

- Mən bir müşahidəmi diqqətinizə çatdırmaq istəyirəm, - deyə polkovnik Çingiz Quliyev gərgin günlərdə göstərdikləri fəaliyyətdən daha çox səhra hərbi tibb ocaqlarında işin səmərəli təşkili barəsində düşüncələrini bizimlə bölüşdü. - Əvvəlki vaxtla müqayisədə indi həm təchizat, həm də təşkilatçılıq yüksək səviyyədədir. Yaralıların əməliyyat edilməsi prosesində Tibb Baş İdarəsi rəisinin böyük əməyini və qayğısını hər an hiss edirdik. Ambulansların qısa zamanda səfərbər olunması, digər tibb müəssisələrindən mütəxəssislərin cəlb edilməsi, qan və qan əvəzedicilərinin təşkili generalın bilavasitə nəzarətilə həyata keçirilirdi. Əməliyyat zamanı lazım olan hər xırda detala qədər düşünülmüşdü. Bu da cərrahi yardımların uğurla nəticələnməsində başlıca amil oldu.

Ön xətdə döyüşlərin qızğın getdiyi günlərdə cəfakeş həkimlər saatlarla əməliyyat otağından çıxmırdılar, döyüşçülərimizin sağlamlığı uğrunda mübarizə aparırdılar, onların həyatda qalması üçün bilik və bacarıqlarını əsirgəmirdilər.

- Vətənimizin keşiyini çəkən oğulların sağlamlığı keşiyində dayanmaq biz həkimlər üçün həm məsuliyyət, həm də şərəf deməkdir, - Çingiz həkim söyləyir. - Ona görə əlimizdən gələni edirik ki, sağlamlığını itirmiş döyüşçülərimizin həyatını təhlükədən qurtaraq. Onlar yenə də ordumuzun sıralarına qayıtsınlar və Silahlı Qüvvələrimizin gücünə güc qatsınlar.

Zabit Çingiz Quliyev Azərbaycan Dövlət Tibb Universitetini müvəffəqiyyətlə bitirən bacarıqlı tibb mütəxəssislərimizdəndir. O, Qarabağ müharibəsi illərində də döyüşçülərimizin sağlamlığı keşiyində dayanmış, yüzlərlə Vətən oğlu onun əllərindən şəfa tapmışdı. Təcrübəli həkimin həmin illərin çətinlikləri ni bu gün ordumuzda yaradılmış şəraitlə müqayisəsi isə tamamilə yerinə düşür.

Son illər ordumuzun fəaliyyətinə aid edilən bütün sahələr dövlətin qayğısı ilə inkişaf etdirilib və müasir hərbi əməliyyatların aparılmasına hazırlanıb.

Hərbi tibb ocaqları, polkovnik Çingiz Quliyevin qeyd etdiyi kimi, dövlətimizin yüksək qayğısı ilə əhatə olunub. Hospitallarımız üçün ən müasir tibbi avadanlıqlar alınıb. Hərbi həkim və tibb personalı bilik və təcrübəsini xeyli artırıb, xarici ölkələrdə ən müasir müalicənin sirlərini mənimsəyiblər. Mütəmadi keçirilən seminar, konfrans və təlimlərdə hərbi şəraitə uyğun fəaliyyət göstərməyi öyrəniblər.



Hazırda hərbçilərin sağlamlığını qorumaq üçün Müdafiə Nazirliyinin rəhbərliyi hər cür şərait yaradıb və müalicə müəssisəsində təyinatına uyğun bütün müayinə və müalicəni yerinə yetirmək mümkündür. Artıq hospitallarda ən mürəkkəb cərrahi əməliyyatları aparmaq imkanı var. Bütün bunların nəticəsini aprel döyüşləri dolğunluğu ilə üzə çıxartdı.

- Döyüş yaralanmalarının əsas hissəsi müştərək zədələnmələr idi, - tibb xidməti polkovnik-leytenanti Şücaət Əliyev bildirir. - Yəni iki nahiyənin zədələnməsi ilə müşayiət edilirdi. Çeşidləmənin düzgün təşkili nəticəsində əməliyyatlarımız uğurlu keçdi. Təcili əməliyyata ehtiyacı olan ağır yaralılara vaxtında kömək göstərilməsi və intensiv terapiyanın düzgün təşkili nəticəsində ölüm halları baş vermədi.

Aprel döyüşləri zamanı öz vəzifələrini şərəflə yerinə yetirmiş hərbi həkimlərimizi də mükafatlandırılanlar sırasında görmək sevindirici haldır. Onlardan biri də tibb xidməti polkovniki Çingiz Quliyevdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrilə bu yaxınlarda təcrübəli həkimə tibb xidməti polkovniki hərbi rütbəsi verilib.

Hospitalda qəbul şöbəsinin rəisi tibb xidməti kapitanı Eldar Mehrəliyev də həmin günlərdə üzərinə düşən işləri yüksək səviyyədə və təlimatlara uyğun təşkil etmişdi. O, çeşidləməni peşəkarlıqla aparırdı və öz vəzifəsinə yetərincə məsuliyyətlə yanaşırdı. Ağır yaralılar vaxtında əməliyyat edilirdilər. Digər yüngül, əməliyyata ehtiyacı olmayan yaralılar da düzgün müayinə olunaraq sarğı edilir və müalicəyə qəbul edilirdilər.

Həmin hadisələr zamanı fədakarlıqları ilə seçilən cərrahiyyə bölməsinin rəisi tibb xidməti kapitanı Anar Əliyevin, reanimasiya bölməsinin rəisi tibb xidməti mayoru Telman Rzayevin adlarını da çəkmək istəyirəm. Çünki onlar döyüş gedən günlərdə xeyli əmək sərf etdilər. Eyni zamanda səyyar tibb qrupunda tibb xidməti kapitanı Amil Əliyevin də əməyini qeyd etmək yerinə düşər.

Hospitalda gecə-gündüz xidmət aparan, Qarabağ müharibəsinin getdiyi vaxtdan xidmətdə olan, ömrünü hərbçilərin sağlamlığına həsr etmiş tibb bacıları yenə yaralı döyüşçülərimizin sağlamlığı üçün çalışdılar. Əməliyyat tibb bacılarından Xalidə Fərzəliyeva, Tünzalə Cəfərovanı, anesteziologiya tibb bacısı Tofiqə Əsədovanı qeyd etmək olar.

Hərbi həkimlərin öz işlərini yüksək təşkilatçılıq şəraitində qurması, vəzifələrinə məsuliyyətlə yanaşması, hərbi əməliyyatlarda yaralı və zərərçəkmişlərə ilkin yardımın göstərilməsindən tutmuş onların çevik hospitallara çatdırılması, əməliyyat edilməsi və digər müalicə ocaqlarına təxliyyə edilməsi kimi vəzifələrin öhdəsindən məharətlə gəlmələri hərbi təbabətimizin müasir səviyyədə qurulmasının təsdiqidir.

**Əbülfət MƏHƏRRƏMOĞLU,**
**"Azərbaycan Ordusu"**

# "Toplarımız tezliklə Qələbə şərəfinə yaylım atəşi açacaq"

***Aprelin əvvəllərində Ermənistan silahlı birləşmələri müxtəlif növ silah və hərbi texnikanın köməyi ilə bütün cəbhəboyu mövqelərimizə, kənd və qəsəbələrimizə zərbələr endirdi, xüsusi ilə də dinc əhalini hədəf seçərək növbəti təxribata əl atdı. Düşmən təxribatlarının qarşısı ordumuzun cəbhə bölgəsində yerləşən bölmələri tərəfindən layiqincə alındı. Bəzi əhəmiyyətli yüksəkliklər ordumuzun nəzarətinə keçdi.***

Bu hadisələr baş verərkən Azərbaycan Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclası keçirilirdi. Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışında bildirdi ki, bizim qəhrəman döyüşçülərimiz nəinki təxribatların qarşısını ala bildilər, eyni zamanda daha əlverişli hərbi mövqelərə malik oldular. "Bu gün təmas xəttində Azərbaycanın üstünlüyü daha da möhkəmləndi. Aparılan hərbi əməliyyat nəticəsində, - onu da qeyd etmək istəyirəm ki, bu əməliyyat təxribata cavab olaraq aparılmışdır, - biz böyük hərbi qələbəni qazandıq."



Qeyd etmək lazımdır ki, erməni qəsbkarlarına qarşı aprel döyüşlərində Silahlı Qüvvələrimizin bütün qoşun növlərinin hərbi qulluqçuları kimi, artilleriyaçılarımız da hünər və rəşadət nümunələri göstərdilər. Artilleriya təyinatlı "N" hərbi hissəsində də bu yaxınlarda aprel savaşında fərqlənmiş hərbi qulluqçuların mükafatlandırılması mərasimi keçirilib. General-mayor Zahid Hüseynov tədbirdə iştirak edib. İdarə rəisi çıxışında qeyd edib ki, aprelin əvvəllərində düşmənin növbəti təxribatına Silahlı Qüvvələrimizin cavabı yetərincə sərt oldu. "Qəhrəman hərbçilərimiz qəsbkarlara layiqli cavab verdilər. Çoxsaylı itkilərə məruz qalan düşmən silahsursatını ataraq geri çəkilməyə, qaçmağa məcbur oldu. Azərbaycan Ordusunun nəyə qadir olduğu bir daha düşmənlərimizə sübut olundu. Mərd, qorxubilməz oğullarımız düşmən işğalı altında qalan torpaqlarımızı azad etmək üçün gözlərini belə qırpmadan mübarizəyə atılmağa hazır olduqlarını bütün dünyaya göstərdilər. Biz çox qürurluyuq ki, belə igid oğullarımız var. Onlar Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin əmri ilə çox az bir zaman ərzində işğalda olan torpaqlarımızı azad etməyə və ərazi bütövlüyümüzü bərpa eməyə hazırdırlar."

Sonra aprel döyüşlərində fəal iştirak etdiklərinə görə, zabitlər Vüqar Məmmədov, İlqar Rəhimov, Elşən Vəliyev, Mahir İmanov, Mehman Əbilov, Elşən Hüseynov, Səbuhi Mirzəbəyov, Tərlan Talıblı, gizirlər Ramil Səfərli, Ülfət Əlihüseynli, kiçik çavuş Rövşən Abdullayev, əsgər Namiq Abdullayev və başqaları təltif edilibələr. Mükafatları təqdim edən yüksək çinli zabit vətənpərvərlik və şəxsi şücaət nümayiş etdirmiş artilleriyaçılara Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından xoş arzularını çatdırıb, onlara cansağlığı, uzun ömür və hərbi xidmətlərində uğurlar diləyib.

Zabit Vüqar Məmmədov silahdaşları adından danışaraq onlara verilən dəyərə görə minnətdarlığını bildirib və qeyd edib ki, ordumuzun qazandığı bu qələbədə zabitdən tutmuş əsgərə kimi hamının xidməti, zəhməti olub. "Ali Baş Komandanı, xalqımızı və Müdafiə Nazirliyinin rəhbərliyini əmin edirəm ki, hər an Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmışıq. Hər birimizin damarlarında artilleriya generalımız Səməd bəy Mehmandarovun, hələ imperiya ordusunda xidmətdə olarkən "Artilleriyanın Allahı" titulunu qazanmış Əlağa Şıxlinskinin qanı axır. Bundan sonra da düşmənin layiq olduğu ən sərt cavabı verməyə hazırıq. Toplarımız tezliklə Qələbə şərəfinə yaylım atəşi açacaq."

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Düşmənə yenə də layiq olduğu cavabı verməyə hazırıq

***Apreldə Silahlı Qüvvələrimizin düşmən təxribatlarına cavab olaraq həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatları, bir sıra strateji yüksəkliyi nəzarətinə götürməsini xalqımız böyük coşqu ilə qarşıladı. Bu mövqe qələbəsi dostlarımızın və dünyanın hər yerində yaşayan soydaşlarımızın hədsiz sevincinə səbəb oldu.***

Son illər Azərbaycanda qazanılan siyasi-iqtisadi nailiyyətlər, eləcə də ordu quruculuğunda əldə etdiyimiz böyük uğurlar dünya miqyasında geniş əks-səda doğurub. Dünyanın tanınmış siyasət adamları, politoloqlar, nüfuzlu xadimlər tez-tez Azərbaycanla bağlı açıqlamalar verir, ölkəmizin nail olduğu uğurlardan məmnunluqla danışırlar. Azərbaycan indi güclü orduya malik etibarlı tərəfdaş, regionda söz sahibi olan dövlət, dinamik inkişaf edən ölkə kimi dəyərləndirilir. Söz yox ki, bütün uğurlarımız Prezidentimizin və Silahlı Qüvvələrimizin məqsədyönlü fəaliyyətinin nəticəsidir.

Şəxsən bəzi proseslərdə iştirak etməsək də, əksər hadisələrin gözümüz qarşısında baş verdiyindən bu uğurlar haqqında ürək dolusu danışmaq imkanımız vardır. Ordumuzun elmi əsaslarla yenidən qurulması, formalaşması da ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Vətənini, xalqını sevən hər kəs bu quruculuq işlərinin başlıca istiqamətlərinin dövlətçiliyin qorunmasına yönəldiyini görüb.

Ümummilli lider Heydər Əliyev həmişə deyərdi ki, harada yaşamağımızdan asılı olmayaraq Azərbaycan hamımızın Vətənidir. Bu mənada hər kəs ölkəmizin inkişafına öz töhfəsini verməlidir.

Təəssüf ki, bəzi soydaşlarımız bu prosesdə iştirak etmək əvəzinə, bəzi ermənipərəst qüvvələrin sifarişləri ilə ölkəmizin uğurlarına, ordumuzun qələbəsinə kölgə salmağa, qara yaxmağa səy göstərirlər. Düşmən heç vaxt bizim uğurumuza sevinməz. Hollandiyada, Rusiyada, Almaniyada, Norveçdə, eləcə də ölkəmizdə bəzi soydaşlarımızın Azərbaycan və Silahlı Qüvvələrimiz haqqında səsləndirdiyi qərəzli, iftira, böhtan xarakterli fikirlər adamda ikrah doğurur. Onları şəxsən tanımasaq da, bəziləri haqqında cəmiyyətimiz yetərincə məlumatlıdır. Müxtəlif tədbirlərdə, televiziyada və mətbuatda onları izləmək imkanımız olub. Uzun illər müxtəlif vəzifələr tutmuş, adamların dönük olması, həqiqətən, insanı sarsıdır.

Sadiqlik, sədaqət mənəvi dəyərdir. Yaxşı olardı ki, belələri Azərbaycanın hesabına əldə etdiyi imkanlardan istifadə edərək, Vətənimizi, dövlətimizi, ordumuzu təbliğ etsinlər və düşmənlərlə mübarizədə soydaşlarımızın həmrəyliyinə yardımçı olsunlar. Heç olmasa bu yaxınlarda Almaniyada tanış olduğumuz sadə bir soydaşımız kimi xeyirxah, təəssübkeş olmağı bacarsınlar. Tərcüməçi soydaşımızın rəsmi şam yeməyində etdiyi hərəkəti də bizi çox duyğulandırdı. O, çantasından Azərbaycanın bayrağını çıxarıb masanın üzərinə qoydu. Razılaşarsınız ki, çox az adam tapılar çantasında mənsub olduğu ölkənin bayrağını gəzdirsin. Bəli, hər kəs əlindən gələni edərsə, həm Vətənimizin, həm də vətəndaşlarımızın yükü azalar, ölkəmiz, ordumuz günbəgün qüdrətlənər.

İnamla demək olar ki, heç bir qüvvə həmrəyliyimizi poza, müstəqilliyimizi sarsıda bilməz. Xalqın dəstəyinə arxalanan Azərbaycan Prezidenti uğurlu siyasətini, islahatlarını, quruculuq işlərini inamla, əzmlə davam etdirir. Bütün bunlar dostlarımızı və dünyada yaşayan həmvətənlərimizi sevindirir. Bu sevinc uzunömürlü sevinc olacaq.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Aviasiya və yerüstü təhlükəsizlik prosedurlarına dair ekspertlərin təcrübə mübadiləsi keçirilir



ABŞ-ın Oklahoma ştatının Qırıcı Aviasiyası Yerüstü və Uçuş Təhlükəsizliyi Proqramı üzrə ekspert qrupu ilə Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin nümayəndələri arasında aviasiya və yerüstü təhlükəsizlik prosedurlarına dair təcrübə mübadiləsi üzrə tədbir keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir çərçivəsində hərbi aerodromların uçuş-enmə zolağı, aerodromun təhlükəsizliyi və texniki qulluq prosedurları, eləcə də aerodrom ərazisindəki obyektlər və uçuş-enmə zolağının təmiri ilə bağlı tələblər mövzularında müzakirələr aparılır.

Bundan əlavə, qarşılıqlı brifinqlərin təqdim olunması və praktiki nümayişlərin yerinə yetirilməsi də planlaşdırılır.

Ekspertlər qrupunun səfəri mayın 20-dək davam edəcək.

# Azərbaycanda akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri Silahlı Qüvvələrimizin hərbi hissəsini ziyarət ediblər

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi illik fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri üçün mayın 17-də Silahlı Qüvvələrin hərbi hissəsinə tanışlıq səfəri təşkil olunub.

Səfər çərçivəsində qonaqlara hərbi hissə barədə brifinq təqdim edilib və onların suallarları cavablandırılıb.

On beş dövləti təmsil edən hərbi attaşelik aparatının 20-dən çox nümayəndəsi hərbi hissənin əsgər yeməkxanası, yataqxana binaları, məşğələ otaqları, təlim nöqtələri və digər obyektləri ilə tanış olublar.



Həmçinin qonaqlar hərbi hissənin yaranma günü ilə bağlı keçirilən tədbirdə də iştirak ediblər.

Hərbi attaşelər səfərin yüksək səviyyədə təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda qonaqlarla xatirə şəkli çəkdirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və süqutunun səbəbləri.*

İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət**

Azərbaycan öz müstəqilliyini elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif şəhərlərində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə Azərbaycan milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacinski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə xalqın rəğbətini qazanan şura Bakıda siyasi üstünlüyə malik idi.

Milli hərəkat fəallarının xalqın hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər milli-siyasi ideyaların təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda ümummilli mənafeləri əks etdirən strateji vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi.

Rusiyada 1917-ci ilin oktyabr silahlı üsyanından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk günlərdən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

**Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu**

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş Seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. İstiqlal bəyannaməsində göstərilirdi ki:

1. Azərbaycan suveren dövlətdir, Azərbaycan xalqının hakimiyyəti altına Zaqafqaziyanın cənub və şərq hissələri daxildir.

2. Müstəqil Azərbaycan dövlətinin hökumət forması xalq cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti hamı ilə, xüsusən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti etnik mənşəyindən, dilindən, sinfindən, peşəsindən, cinsindən asılı olmayaraq, sərhədləri daxilində bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün təminat verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.

6. Azərbaycan Müəssislər Məclisi çağırılana qədər Azərbaycan üzərində ali hakimiyyət hamı tərəfindən seçilmiş Milli Şura və bu şura qarşısında cavabdeh olan hökumət tərəfindən həyata keçirilir.

Milli Şurada "Müsavat", "Bitərəf Demokratlar Qrupu", "Müsəlman Sosialist Bloku", "Sosial-Demokratik Hökumət Qrupu" və "İttihad" partiyaları təmsil olunurdu.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyəti ilk hökumətinin təşkil edilməsi Fətəli xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi. İlk hökumətin tərkibində hərbi nazir vəzifəsi də nəzərdə tutulmuş və bu vəzifə Xosrov bəy Sultanova həvalə olunmuşdu.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura müvəqqəti hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyilə ikinci hökumət təşkil edildi. İkinci hökumətin tərkibində hərbi nazir vəzifəsi yox idi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq, hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan, əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam ordusu və Azərbaycan ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək, Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı üzərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü.

Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin tərkibi 120 deputatdan ibarət idi. Parlamentdə azərbaycanlılara 80, ermənilərə 21, ruslara 10, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsinə 1, Həmkarlar İttifaqı Şurası və Neft Sənayeçiləri İttifaqı üçün 3 yer ayrılmışdı. Parlamentin ilk iclasında F.Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi. Hökumətin təşkili F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən artıq dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə aparırdı.

Hökumətin Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzalandı. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Nazirlər Şurasının qərarına uyğun olaraq, 1918-ci il noyabrın 7-də Hərbi Nazirlik təsis edildi.

**Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri**

Azərbaycanın beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərində vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhədində cəmləşdirərək işğala hazırlaşırdılar.

Bolşeviklər Azərbaycan daxilində də təxribatçılıq fəaliyyətini gücləndirirdilər. 1920-ci ilin fevralında A.Mikoyanın rəhbərliyi ilə yaradılmış Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək üçün Qarabağda və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər.

1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və hərbi əmlak itkilərinə məruz qalmışdı. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı Ordu Azərbaycan sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar.

Aprelin 27-də saat 12.00-da Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu adından Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi. Azərbaycan parlamenti aprelin 27-dən 28-nə keçən gecə fövqəladə iclasında qızğın müzakirədən sonra ultimatumu qəbul etdi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu.

Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verilirdi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri bərpa olunaraq yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi böhranın dövlətçiliyimizi təhlükə altında qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, dövləti idarəetmə sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyev cənablarını ölkə rəhbərliyinə dəvət etdi. Məhz cənab Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun ən vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

*Ordu və cəmiyyət*

# Qalib Azərbaycan əsgəri uşaqların gözü ilə

*Vətənini sevən, Vətəninin əsgərini sevən, gözəl düşünən uşaqlar zamanında əsgər olacaqlar. Bu ağıl-kamalla Vətənə layiqli vətəndaş olacaqlar, azərbaycançılığın cəfakeşi olacaqlar. Onlar da qürurla, dönməz qətiyyətlə, qədərsiz sevgilərlə "Vətən - gözdü, biz - kirpik" deyəcəklər.*

*Bu günün uşaqları "Ağ atlı oğlan" bədii filmində gördüyümüz (və sevdiyimiz!) Murad kimi düşünür. Onlar da torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətindədi. Onlar da bilir ki (və inanır ki!), danışıqlar baş tutmasa, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Əsgərlərimiz azad edəcək. Bilirlər və əsgərlərimizə məktublar yazırlar, "Bizə qardaşsınız, analara oğul!" deyirlər. Əsgərlərə çatası məktubları Müdafiə Nazirliyinə ünvanlayırlar. Bu məktubların hər birində Vətən boyda bir ürək döyünür. Könül açan fikirləri oxuduqca Şuşada, Xankəndidə, işğal olunmuş bütün torpaqlarımızda dalğalanacaq bayraqlarımızı görürük!..*

*İnamı, etibarı tarixləşdirdiyinə görə hər məktub bir tarixdir...*

*Uşaqların düşüncələri Vətənə köklənib, əsgərlərimizin rəşadətinə, qətiyyətinə köklənib, qələbəyə köklənib...*

**"Azərbaycan Ordusu"**



Lələtəpədə dalğalandırdığın bayrağı Şuşada da dalğalandıracağına inanırıq, Azərbaycan əsgəri. Mən də böyüyəndə sənin kimi igid, qorxmaz, məğrur olacağam.

**Əli Əlizadə, 4-cü sinif şagirdi**

* * *

Salam, ölkəmizin mərd, igid əsgərləri. Sağ olun, siz nənələrimizi, babalarımızı, atalarımızı, analarımızı, bizi qoruyursunuz.

Mən də, sinif yoldaşlarım da bilir ki, müharibə hələ qurtarmayıb. Müharibəni siz qurtaracaqsınız. Qələbə ilə qurtaracaqsınız. Sizin gücünüzə, qüdrətinizə inanırıq.

Biz Xarı bülbülü ancaq şəkillərdə görmüşük. Şuşanı azad edəndən sonra bizim məktəbimizə Xarı bülbül gətirərsiniz. O günü gözləyirik...

**Nazənin Məmmədəliyeva, 5-ci sinif şagirdi**

* * *

Salam, əsgər.

Biz sizinlə fəxr edirik. Sinif yoldaşlarım adından sizə salam göndərirəm.

Mənim atam da hərbçidir. Mən də böyüyəndə əsgər olacağam. Sonra komandir olacağam. Torpaqlarımızı siz azad edəcəksiniz. Ondan sonra torpağı məndən böyüklər, sonra mən və mənim yaşıdlarım qoruyacaq.

Siz səngərdə ayıq-sayıq durun. Ürəyiniz arxada qalmasın. Biz həmişə sizinləyik!

**Sənan Əliyev, 2-ci sinif şagirdi**

* * *

Salam, Azərbaycan əsgəri. Torpaqlarımızın igid müdafiəçiləri. Mən hər gün internetdə xəbərləri atamla bərabər izləyirəm. Apreldə qazandığınız qələbələr bütün Azərbaycanındır. İnanırıq ki, sonda da qələbə bizim olacaq.

Mən sizin üçün darıxmışam. Kaş sizin yanınızda olaydım!..

Sizə bir şeir yazdım:

Çağırır Vətən,
İstəyir kömək.
Onu düşməndən
Qorumaq gərək.

Kim pis niyyətlə
Gəlsə ölkəmə,
Bu torpaq onu
Batırar qəmə!..

**Dərya Məmmədova, 3-cü sinif şagirdi**



* * *

Dağ kimi məğrur dayan, şimşək kimi çax, Azərbaycan əsgəri!

**Arzu Həsənova, 2-ci sinif şagirdi**

* * *

Salam, igid Azərbaycan əsgəri!

Biz məktəbimizə sizin sayənizdə rahat gedib-gəlirik. Sizə varlığımızla inanırıq və güvənirik. Mən də, yoldaşlarım da sizinlə qürur duyur.

Aprel ayında təsdiqlədiniz ki, düşməndən çox güclüsünüz. Yaxın vaxtlarda işğal olunmuş bütün torpaqlarımızı azad edəcəksiniz. Buna hamı kimi biz də inanırıq.

Sizə cansağlığı, böyük qələbə əzmi arzulayırıq.

**Rəvanə Hüseynova, 5-ci sinif şagirdi**

* * *

Salam, Azərbaycanın igid və qəhrəman əsgərləri! Sizin apreldə göstərdiyiniz şücaətlərlə biz şagirdlər də fəxr edirik.

Biz də böyüyəndə sizin kimi cəsur və qəhrəman olacağıq.

Biz sizə güvənirik. Bilirik ki, erməniləri işğal olunmuş torpaqlarımızdan çıxaracaqsınız.

**Elgün Məhəmmədov, 3-cü sinif şagirdi**

* * *

Salam, əsgər!

Mənim və dostlarımın 6 yaşı var. Biz də əsgərlər olan yerdə yaşayırıq. Mənim qaqam da böyüyüb əsgər olacaq. Bizim atalarımız da əsgərdir. Atamızla fəxr etdiyimiz kimi, sizinlə də fəxr edirik. İnanırıq ki, torpaqlarımızı tezliklə alacaqsınız.

**Fatimə Xəlilzadə və dostları Əli, Sahib, 2-ci sinif şagirdi**

* * *

Mən çox sevinirəm ki, Azərbaycanın güclü ordusu var. Sizin kimi mərd əsgərləri var. Biz sizə inanırıq. İnanırıq ki, işğal altında olan torpaqlarımızı azad edəcək, bayrağımızı o torpaqlarda da dalğalandıracaqsınız.

**Uğur Ələkbərzadə, 2-ci sinif şagirdi**

* * *

Salam, əsgər!

Biz bütün əsgərlərimizi çox istəyirik.

Mənim atam da hərbçidir. Onun da, sizin də Vətənə çox lazımlı olduğunuzu bilirik.

İnanırıq ki, bütün torpaqlarımızı azad edəcəksiniz.

**Jalə Əhmədzadə, 1-ci sinif şagirdi**

* * *

Əsgər olmaq müqəddəs bir amaldır. Siz də Vətənin keşiyində bu amal üçün dayanıbsınız. Qışda soyuq, yayda isti, bürkü olan səngərlərdə. O səngərlər ki, bizim hamımızın ümididir. Sən ordan torpaqlarımızı azad etməyə gedəcəksən. Sənin əlini şaxta heç zaman üşüdə bilmədi. Axı sən Azərbaycan əsgərisən! Sən hədəfi dəqiq nişan alırsan. Belə də olmalıdır. Çünki sən Azərbaycan əsgərisən! Sən düşməni Azərbaycanda istehsal olunan silahlarla məhv edəcəksən!

**Elnarə Qəşəmova, 5-ci sinif şagirdi**



* * *

Sizinlə fəxr edirik, Azərbaycan əsgəri!

**Arzu Əliyeva, 2-ci sinif şagirdi**

* * *

Salam, cəsur, igid Azərbaycan əsgəri.

Mənim atam da əsgərdir. Mən onun üçün darıxsam da, bilirəm ki, atam Vətəni qoruyur. Ona görə səbrlə onun Qarabağdan qələbəylə qayıdacağı günü gözləyirəm. Atamla necə fəxr edirəmsə, sizin hər birinizlə də elə fəxr edirəm. Siz Vətənimizin ən dəyərli oğullarısınız.

**Fidan Gülməmmədli, 5-ci sinif şagirdi**

* * *

Salam, Azərbaycan əsgəri!

Arzu edirəm ki, həmişə döyüşlərdə qalib gələsiniz. Torpaqlarımızı azad edəsiniz. Mənim atam hərbçidir. Mən onun övladı olmağımla fəxr edirəm. Vaxtında siz də ata olacaqsınız və uşaqlarınız sizinlə fəxr edəcəklər. Qalib əsgərin oğlu, yaxud qızı kimi.

**Yazgülü Şirinova, 3-cü sinif şagirdi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə PKK-ya məxsus cəbbəxana aşkarlanıb



Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən ölkənin Bitlis bölgəsində Kürd Fəhlə Partiyasına (PKK) məxsus böyük bir cəbbəxana aşkarlanıb.

Rəsmi məlumatda bildirilir ki, cəbbəxanada 600 kiloqram müxtəlif təyinatlı partlayıcı, 580 adda terror törətmək məqsədilə nəzərdə tutulan vasitə olub. Bildirilir ki, cəbbəxana torpaq altında aşkarlanıb.

## Yəməndə terrorçu-kamikadzenin hücumu nəticəsində ölənlərin sayı 41-ə çatıb



Yəmənin cənubundakı əl-Mukalla şəhərində terrorçu-kamikadze özünü partladıb. Hadisə polis əməkdaşlarının şəhərin kənarında toplaşdığı mərkəzin yaxınlığında baş verib.

Hadisə nəticəsində 41 nəfər ölüb, 60 nəfər yaralanıb.

Partlayışa görə məsuliyyəti İŞİD terror qruplaşması öz üzərinə götürüb.

## Əfqanıstanda polis bazası yaxınlığında partlayış törədilib



Əfqanıstanın cənubunda polisin təlim mərkəzi yaxınlığında baş verən partlayış nəticəsində ən azı 4 nəfər həlak olub, on nəfərdən çox insan isə yaralanıb.

Hadisə səhər saatlarında baş verib. Partlayışın avtomobilə yerləşdirilmiş bombanın işə düşməsi nəticəsində baş verdiyi bildirilir.

Hadisəyə görə məsuliyyəti Taliban hərəkatı üzərinə götürüb.

## "İpək yolu" iqtisadi konsepsiyasının inkişafına həsr edilmiş regional forum keçiriləcək



"İpək yolu" iqtisadi konsepsiyasının inkişafına həsr edilmiş regional forum keçiriləcək.

Bu il "Bir qurşaq, bir yol" adında regional forum Belarusda keçiriləcək.

Belarusun Baş naziri Andrey Kobyakov Çinin kommersiya nazirinin müavini Çjun Şan ilə Minskdə görüşü zamanı bu barədə məlumat verərək bildirib ki, "İpək yolu" layihəsində iştirak edən tərəflərlə hazırda forumun keçirilməsi ilə bağlı müzakirələr aparılır.

## Dünyanın ən böyük səyahət gəmisi ilk reysinə çıxıb



Dünyanın ən böyük səyahət gəmisi Fransanın qərbindəki tərsanədən çıxaraq Sauthemptona, oradan isə Aralıq dənizinə yola düşəcək.

"Dənizlərin harmoniyası" adlandırılan layner 20 mərtəbəli ev hündürlüyündədir və 6300 sərnişin, 2000 heyət üzvü üçün nəzərdə tutulub. Gəmi buz meydançası, kazino, konsert zalı, alpinistlər üçün divar və basketbol meydançasının olduğu 16 göyərtədən ibarətdir.

Dənizdəki ən sürətli internetə malik laynerdə 7 günlük səyahət azı 1200 dollara başa gələcək.

**AZƏRTAC-ın materialları əsasında**

Futbol

# Son turda qol yağışı



Azərbaycan futbol çempionatının I divizionunda sonuncu - 26-cı turun oyunları keçirilib. MOİK bu turda Qusarın "Şahdağ" komandasını qəbul edib. 2015-2016-cı mövsümü major notlarla başa vurmaq istəyən ordu futbolçuları rəqiblərini meydançaya çıxmağa peşman edib. MOİK-in yetirmələri birinci hissədə "Şahdağ"ın qapısından 3 cavabsız qol keçiriblər. İkinci hissədə "hərbçilər" rəqib qapıçını daha 6 dəfə topu tordan çıxarmağa məcbur ediblər. Qolların 6-nı I divizionun bombardiri Röyal Nəcəfov (7, 12, 17, 49, 52, 65(p.)) şimallıların qapısından keçirib. Röyal 24 qolla çempionatın ən sərrast futbolçusu adını qazanıb.

"Şahdağ" bu qollardan yalnız birinin əvəzini çıxa bilib. Qusar futbolçusu Sərxan Apayev 51-ci dəqiqədə penalti zərbəsini dəqiq yerinə yetirib.

Bununla MOİK mövsümü 4-cü yerdə başa vurub.

Çempionatın ilk turlarını zəif keçirməsi ordu futbolçularının daha yüksək yer tutmasına mane olub. Müşfiq Qəmbərov komandaya baş məşqçi təyin edildikdən sonra MOİK-in oyununda dönüş yaranıb. Son qarşılaşmalarını yüksək səviyyədə keçirmiş "hərbçilər" məğlubiyyətsiz oyunlarının sayını 10-a çatdırıblar və bu oyunların 8-də MOİK qələbə qazanıb.

Beləliklə, mövsüm ərzində xallarını 47-ə çatdıran ordu futbolçuları bu göstəriciyə görə "Ağsu" klubuna çatıblar. Ancaq əlavə göstəricilərə görə üstün olan aran komandası çempionatın bürünc medalına sahib çıxıb.

| Klublar | O | Q | H | M | T-F | X |
|---|---|---|---|---|---|---|
| 1. Neftçala | 26 | 20 | 2 | 4 | 74-20 | 62 |
| 2. Qaradağ L. | 26 | 18 | 4 | 4 | 59-28 | 58 |
| 3. Ağsu | 26 | 13 | 8 | 5 | 46-29 | 47 |
| 4. MOİK | 26 | 14 | 5 | 7 | 53-24 | 47 |
| 5. Şəmkir | 26 | 10 | 8 | 8 | 30-24 | 38 |
| 6. Zaqatala | 26 | 9 | 9 | 8 | 47-36 | 36 |
| 7. Turan Tovuz | 26 | 10 | 6 | 10 | 35-31 | 36 |
| 8. Mil-Muğan | 26 | 8 | 8 | 10 | 28-26 | 32 |
| 9. Bakılı | 26 | 8 | 6 | 12 | 34-46 | 30 |
| 10. Şahdağ | 26 | 8 | 6 | 12 | 31-54 | 30 |
| 11. Şərurspor | 26 | 8 | 4 | 14 | 45-44 | 28 |
| 12. Göyəzən | 26 | 3 | 8 | 15 | 17-42 | 17 |
| 13. Energetik | 26 | 4 | 3 | 19 | 14-100 | 15 |
| 14. Bakı | 26 | 9 | 3 | 14 | 33-42 | 15 |

Röyal Nəcəfov (MOİK) - 24 qol.

David Janelidze ("Neftçala") - 21 qol.

Oruc Balaşlı ("Zaqatala") - 18 qol.

Rəhman Musayev ("Şərurspor") - 16 qol.

**Qeyd:** FİFA-nın İntizam Komitəsinin qərarına əsasən, "Bakı"nın 15 xalı silinib.

**"Azərbaycan Ordusu"**

Ovqat

# Qürurla yaşayırıq

*Müharibənin nə olduğunu kitablardan oxumuşduq, filmlərdə görmüşdük. "Əsgər atası" bədii filmində müharibə ağrılarını daha kövrəkliklə hiss eləyirik. Ağır döyüşlər gedən yerlərdə oğlunu axtaran atanın ata sevgisi ilə torpaq sevgisi, insana sevgisi çox inandırıcı verilib. Təsadüfən tanış olduğu, sonra cəbhədə, döyüş yoldaşı olduğu Arkadinin ölümünü düşmənə sonsuz nifrətiylə yaşayan, ölümün gözünə dik baxan və ani bir zərbəsi ilə faşisti öldürən Maxaraşvili bitkin ata, döyüşçü obrazıdır...*

On illər sonra müharibə yaşayası olduq. Bu müharibədə də döyüşçü yoldaşını varlığıyla sevənlər haqda məlumatlıyıq.

Aprel döyüşləri düşmənlə təmas xəttində döyüşçülərimizin mühüm mövqe qələbələri ilə nəticələndi. Bu döyüşlər təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Şəhidlərimiz də oldu...

..."Alın yazısı" verilişi şəhid Əbdülməcid Axundova həsr olunmuşdu. Ata-anası danışırdı, müəllimi danışırdı...

Əbdülməcidin müəllimi onun necə duyğusal şagird olmasından, sinif yoldaşlarına da, müəllimlərinə də səmimi münasibətindən, Vətəni dərin məhəbbətlə sevməsindən danışırdı. Əbdülməcidi tanımayan çox idi. Onu indi hamı tanıyır. Hamı onun da qəhrəmanlığından danışır. Zənnimcə, bu veriliş Əbdülməcidin oxuduğu məktəbin şagirdləri üçün daha kövrək olub. Onun Vətən sevgisi, şəhidliyi şagirdlər üçün bir vətənpərvərlik nümunəsidir.

Aparıcı bildirdi ki, çəkiliş zamanı Əbdülməcidin iki döyüşçü yoldaşı da şəhidin ailəsinə gəlib. Təsadüfən. İkisi də döyüşdə yaralanıbmış. Əbdülməcidin dəfnində hospitalda müalicə olunublar. Hərbi hissəyə qayıtmamış dostlarının anasıyla görüşməyi özlərinə mənəvi borc biliblər.



Onlar da danışırdılar. Əbdülməcidin dosta, dostluğa sədaqətindən, mərdliyindən, qətiyyətindən danışırdılar. Döyüşdə necə şücaət göstərdiyini deyirdilər...

Düşündüm ki, bu gəliş şəhid anası üçün təsəlli olacaq...

Bu verilişi niyə xatırladım?

Azərbaycn əsgəri təkcə qətiyyəti, casərəti ilə deyil, həm də mənəvi dəyərləri ilə tanınır. Döyüşçü dostunu, şəhid dostunu, səngərdaşını unutmur. Unuda bilmir. Unutmayacaq. Döyüş olarsa, onlar şəhid dostlarının da əvəzindən vuruşacaqlar. Onsuz da qələbə bizim olacaq. Bu qələbə həm də şəhidlərimizin ruhunun qələbəsi olacaq.

Tələbə yoldaşlarımla aprel döyüşləri haqda çox söhbətlərimiz olur. Hər dəfə şəhidlərimizi də xatırlayırıq. Bu qələbə ordumuzun gücünün, qüdrətinin nəticəsi olmaqla düşmənə də, onu gizlin-aşkar dəstəkləyənlərə də bir həqiqəti anlatdı: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir!

Şəhidlər haqqında verilişlər, məqalələr yeniyetmələrin də, gənclərin də Vətən sevgisini gücləndirir. Azərbaycan kimi bir dövlətin vətəndaşı olmağın qürurunu daha böyük sevgilərlə yaşamaq xoşbəxtlikdir. Bu xoşbəxtliyi bizə ordumuz yaşadır və yaşadacaq!..

**Şəbnəm BEHBUDZADƏ**

# Şərur məktəbliləri qalib oldular



Gənclərimizi təhsil illərindən əsgəri xidmətə hazırlamaq vacib amildir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tam orta məktəblərdə də çağırışaqədərki hazırlıq fənni yüksək səviyyədə tədris olunur, hərbi vətənpərvərlik tərbiyəsinə ciddi önəm verilir. Buna görə gənclərin çağırışaqədərki hazırlıq fənnində şagirdlərə hərbi vərdişləri aşılayan hərbi rəhbərlərin bilik və peşəkarlıqlarının artırılması diqqət mərkəzindədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları təqdim edilib. Nəticədə isə təkcə o iş qalır ki, hərbi rəhbərlər qazandıqları yeni biliklərlə gələcəyin cəsur və vətənpərvər döyüşçülərini yetişdirsinlər.

Yaradılan şəraitdən düzgün istifadə edilməsinin nəticəsidir ki, tam orta məktəblərin komandaları arasında təşkil olunan hərbi idman oyunlarında şagirdlər fəal iştirak edirlər. Elə Şərur rayon Oğlanqala kənd tam orta məktəbinin şagirdləri kimi. Bu yaxınlarda "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə Azərbaycan çempionatında bu məktəbin komandası qalib gəlib. Komanda göstərdiyi yüksək nəticələrə görə təltif olunub. Təltifetmə mərasimində Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov çıxış edərək bildirib ki, hazırda muxtar respublikamızda təhsil müəssisələri üçün yaradılan şərait gənclərin həm bilikli, həm də vətənpərvər ruhda yetişdirilməsinə geniş imkanlar açıb. Gələcəyin qurucuları olacaq yeniyetmə və gənclərimiz Vətənə bağlı, hərtərəfli biliyə malik, sağlam düşüncəli insanlar kimi yetişdirilirlər.

Muxtar Respublikanın Gənclər və İdman naziri Azad Cabbarov da qeyd edib ki, bu gün idmanın inkişafı diqqət mərkəzindədir. "Muxtar respublikada idman komplekslərinin, üzgüçülük, atıcılıq və şahmat mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin fəaliyyəti ilə yanaşı, hər bir təhsil müəssisəsində də müasir idman zalları yaradılıb. Bu da, təbii ki, gələcək nəslin fiziki inkişafına xidmət edir."

"Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə muxtar respublika birinciliyində qalib olan məktəbin hərbi rəhbəri Adil Məmmədovun təşkilatçılığı ilə komanda Qax şəhərində keçirilən respublika birinciliyində də qalib olub. Komandanın üzvlərindən Zamin Quluzadə isə 100 metr məsafəni 11 saniyəyə qət edərək yeni rekorda imza atıb.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 257
Nüsxə 4720